

# Ayrılığın sonu yoxmuş

... Bir-birimizi müxtəlif qəzet və jurnal səhifələrində görünən imzalarımızdan tanıyırdıq. İllər keçəcək, bu tanışlıq səmimi bir dostluğa çevriləcəkdi... İndi bu sətirləri yazarkən Valeh müəllimin nurlu çöhrəsi gözlərim önündə canlanır. Onunla "Sovet Gürcüstanı" qəzeti redaksiyasında, Tiflisdəki Azərbaycan Mədəniyyət Mərkəzində, ayrı-ayrı elmi və yaradıcılıq məclis və tədbirlərindəki maraqlı görüşlərimizi, 1997-ci ilin aprelində Mədəniyyət nazirinin sərəncamına əsasən Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi Gürcüstan paytaxtında olarkən bizi son dərəcə mehriban ailəsinə qonaq apardığı günləri, təsadüfən əlimə keçən yazılarını Bakıya gətirib "Mədəni-maarif işi" jurnalında çapa hazırlayaraq ona sürprizlər etdiyim anları xatırlayıram.

Bu yaxınlarda Valeh müəllimə bir sürpriz də edəcəkdim. Tərtibçisi olduğum "Borçalının söz boxçası" şeir və hekayələr toplusuna digər soydaşlarımızla yanaşı onun əsərlərini də salmışdım. Nazirliyimizin xeyir-duası və təşkilatçılığı ilə işıq üzü görmüş kitabın Borçalıda möhtəşəm təqdimat mərasimi keçirəcəkdik. Həmin gün təbii ki, Valeh müəllimi növbəti dəfə öz sürprizimlə heyrətləndirəcəkdim. Amma...

Amma çox təəssüf ki, vaxtsız ölüm o gözəl insanla, istedadlı şairlə, tanınmış alimlə, qayğıkeş pedaqoqla yenidən görüşmək səadətini birdəfəlik əlimizdən aldı. Allah rəhmət eləsin!

Yaşar Vəliyev,
"Mədəni-maarif işi" jurnalının baş redaktoru



Görkəmli folklorşünas-alim Valeh Əlipaşa oğlu Hacıyev (Hacılar) 15 aprel 1951-ci ildə Borçalının Darvaz kəndində anadan olmuşdur. Darvaz məktəbində orta, Azərbaycan Dövlət Dillər İnstitutunun rus-Azərbaycan filologiyası fakültəsində ali təhsil almışdır (1968-1973). Elmi və bədii yaradıcılığı ilə tələbəlik illərindən diqqəti çəkən Valeh Hacıyev ədəbi əlaqələr və bədii tərcümə sahəsində ümidverici bir gənc mütəxəssis kimi 1973-cü ildə Azərbaycan və Gürcüstan Yazıçılar İttifaqlarının zəmanətləri ilə Tiflis Dövlət Pedaqoji İnstitutuna işə göndərilmişdir.

1973-cü ildən TDPİ-də elmi əməkdaş, daha sonra Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi kimi fəaliyyətə başlayan V. Hacıyev istər ədəbi əlaqələr, özəlliklə folklor əlaqələri, istər Borçalı-Qarayazı və Axısqa-Cavaxetin türkdilli folklor örnəklərinin toplanması, tədqiqi, nəşri, istərsə də Gürcüstan arxivlərindəki milli folklor nümunələrimizin aşkarlanması, gürcü dilinə tərcüməsi və nəşri məsələlərinin tədqiqi sahəsində olduqca geniş və məhsuldar işlər görmüş, folklorşünaslığımıza əvəzolunmaz töhfələr bəxş etmişdir. Eyni zamanda o, gürcü xalq poeziyasından və gürcü klassik şeirindən Azərbaycan türkcəsinə əsərlər çevirmiş, çap etdirmiş, Azərbaycanca-gürcücə ikidilli lüğətlərin və danışıq kitabçalarının ilk müəllifi kimi tanınmışdır.

Valeh Hacıyev 1984-cü ildə "Azərbaycan dilində şeir qoşan gürcü aşıqları" mövzusunda namizədlik dissertasiyasını Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda müdafiə etmiş, 1985-ci ildə çalışdığı kafedranın dosenti, 1989-cu ilin may ayında isə Tiflis Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri seçilmiş və 17 il həmin kafedraya rəhbərlik etmişdir.

1991-ci ilin oktyabrında Türkiyənin Atatürk Universitetində uluslararası elmi simpoziumda "Gürcüstanda Yunus Əmrə gələnəyi" mövzusunda məruzəsiylə o, türkiyəli elm adamları ilə elmi əməkdaşlığın və şəxsi münasibətlərinin əsasını qoymuş, bundan sonra dəfələrlə Azərbaycanda və Türkiyədə keçirilən mötəbər konfrans və simpoziumlarda iştirak edib Borçalı-Qarapapaq türklərini ləyaqətlə təmsil etmişdir.

1993-cü ildə Valeh Hacıyev "Azərbaycan folklorunun səciyyəvi xüsusiyyətləri (Gürcüstandakı türkdilli folklor örnəkləri əsasında)" mövzusundakı doktorluq dissertasiyasını Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda müdafiə edərək, elə həmin il müdiri olduğu kafedranın professoru seçilmişdir. O, 2000-ci ildə Gürcüstan Ədəbiyyatşünaslıq Elmləri Akademiyasının gizli səsvermə yolu ilə seçimlərində şərqşünaslıq üzrə akademiyanın həqiqi üzvü, akademiki, 2006-cı ildə İ.Çavçavadze adına Tiflis Dövlət Universitetinin orientalistika istiqaməti üzrə tam professoru seçilmişdir.

V.Hacıyev şair-tərcüməçi kimi də tanınırdı. Şeirlərinin bir qismi gürcü dilinə tərcümə olunub. Gürcü, rus, ukrayna və abxaz poeziyasından dilimizə çoxsaylı tərcümələr edib. O, xalq ədəbiyyatına, ədəbi əlaqələrə dair, eləcə də tarixi-filoloji, leksikoqrafik və bədii səpgidə yazılmış 30-a yaxın kitabın müəllifidir. Əsas kitabları bunlardır:

1. Folklorumuzun üfüqləri (Monoqrafiya), Bakı, Yazıçı, 1991;
2. Azərbaycan folkloru ənənələri (dərslik),Tiflis Dövlət Pedaqoji Universitetinin nəşri, 1992;
3. Azərbaycan dili və ədəbiyyatı (qısa kurs-dərslik), Tiflis, Təhsil Nazirliyinin nəşri, 1994;
4. Azərbaycan folkloru antologiyası, II cild, Borçalı folkloru, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1996;
5. Azərbaycanca-gürcücə və gürcücə-azərbaycanca lüğət, Bakı-Tiflis, 1997;
6. Hərşənin ocağı (şeirlər və poema), Tiflis, 2000;
7. Kartuli ena - Gürcü dili (Azərbaycan məktəblərinin III sinfi üçün dərslik-şərikli), Tiflis, "İntellekt", 2000- 2005;
8. Borçalı Mehralı bəy tarixi həqiqətlərdə (Monoqrafiya), Tiflis, 2001;
9. XIX yüzillikdə Borçalıda qaçaqlıq hərəkatı (Monoqrafiya), Tiflis, 2003;
10. Gürcüstanda türk xalq ədəbiyyatı ənənələri (Monoqrafiya), Bakı, Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun nəşri, 2005;
11. Ulu baban kim olub, I kitab (arxiv sənədləri), Tiflis, 2005;
12. Ulu baban kim olub, II kitab (arxiv sənədləri), Tiflis, 2006;

13. Azərbaycan-gürcü folklor əlaqələri, Tiflis, 2007;

14. Türkdilli gürcü, yunan və aysoru aşıq-şairləri (Monoqrafiya), Bakı, Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun nəşri, 2007;

15. Xəstə Hasan (həyatı, şeirlərindən seçmələr), Tiflis, 2009.

Valeh Hacıyev eyni zamanda Gürcüstanda, Azərbaycanda və Türkiyədə tanınan fəal ictimai xadim idi. O, Azərbaycan Yazıçılar Birliyinin, Gürcüstan Prezidenti yanında Təhsil Şurasının, elmi adlar verən Professorlar Şurasının üzvü, Gürcüstan Azərbaycanlı Ziyalılar Birliyinin ilk sədri (daha sonra fəxri sədri), Gürcüstan Yazıçılar İttifaqının Azərbaycan bölməsinin məsul katibi, Tiflisdə UNESCO xətti ilə nəşr olunan "Prometey" və "Qarapapaqlar", Bakıda çap olunan "Dədə Qorqud", Türkiyədə nəşr olunan "Milli folklor", "Türkiyə araşdırmaları" elmi jurnallarının redaksiya heyətlərinin üzvü və Gürcüstan təmsilçisi idi. O, Dünya Azərbaycanlılarının I Qurultayında (Bakı-2001) Gürcüstan nümayəndə heyətinin rəhbəri kimi H.Əliyev adına Respublika Sarayında çıxış etmiş, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının və Əlaqələndirmə Şurasının idarə heyətinin üzvü seçilmişdir.

V. Hacıyevin həyatı və çoxşaxəli fəaliyyəti Türkiyə alimlərinin də diqqət mərkəzində olmuş, Atatürk Universitetində Səmra Alyılmaz tərəfindən bu mövzuda doktorluq dissertasiyası yazılıb müdafiə olunmuş (2002) və "Borçalı bilim adamı, eyitimçi, şair Valeh Hacılar" adlı irihəcmli monoqrafiya nəşr olunmuşdur (Ankara-2003).

Azərbaycan-gürcü ədəbi-mədəni əlaqələrinin inkişafındakı şəxsi xidmətlərinə və səmərəli elmi-pedaqoji fəaliyyətinə görə V. Hacıyev 1998-ci ildə Gürcüstan prezidenti tərəfindən "Şərəf" ordeni ilə təltif edilmişdir.

Valeh Hacıyev 2010-cu ilin 23 yanvar tarixində dünyasını dəyişmiş və öz vəsiyyəti ilə doğma kəndi Darvazda torpağa tapşırılmışdır.

**Əli ŞAMİL**